HƏR GÜN BİR ŞAİR

Şair-publisist Nəcməddin Mürvətovun yaradıcılığı barədə düşüncələr...

"Ariflərі dіndіr kі, nadіr şeіr dі sənət?
Şaіr yaranan ömrə peşіman olа bіlməz!"
Səmad Vurğun

Müstəqillik dövrünün özünəməxsus ədəbiyyatı mövcuddur və artıq bu proses inkişaflıdır. Bu dövr ovsunlu dövrlərdən hamımıza bəllidir. Onsuz fərq bundan ibarətdir ki, Sovetlər Birliyi dövründəki kimi indi ədəbiyyatın üzərində senzura yoxdur. Müstəqillik dövrü dövlət qövlü sifarişləri aradan qaldırılmış, mövzu seçiminə tam sərbəstlik yaranmışdır. İkinci fərq budur ki, bu gün bədii yaradıcılıqda "Vətən", "milli, müqəddəs" anlayışları özə real məzmununa qovuşmuş, Azərbaycan müstəqil dövlət olmuşdur. Əgər əvvəllər şair və ya yazıçı bu ideyalar ağrısında istiklal mübarizə aparırdısa, indi bütün çətinliklərə baxmayaraq, oluşmu bu gerçəyin içində yaşayar. Bu gün real sahədəki hüdudunda müstəqil Azərbaycanımız - öz doğma Vətənimiz mövcuddur.

Bəzən polemika açılır ki, müstəqillik dövrünün ədəbiyyatı neco olmalıdır? Bu dövrün ədəbiyyatı, birinci növbədə, müstəqil ədəbiyyat olmalıdır. Qələbə nəsillərdə "Vətən" sözünü çox işlətməklə vətənpərvərlik mövzusundan ədəbiyyat yaratmaq mümkün deyil. Vətənpərvərlik yazıçı və ya şairin yaradıcılığının bütün mahiyyətini ifadə etməli, vətəndaşlıq duyğusunun daşıyıcısına çevrilməlidir.

Yaradıcılığın bütün mahiyyəti azərbaycançılıq, vətənpərvərlik, Vətənə sevgi motivləri üzərində qurulmalı və mövzusundan asılı olmayaraq, bütün nəsillərə qədər cəbhədən bu prinsipin tələblərinə motivasiya etmolidir.

Müstəqillik illərində yazılıb-yaradan yazarların əsərlərinə diqqət etsək, görərik ki, onlar bu illərdə dəyişənlərini, dərdlərini, tələblərini, arzularını ağkar ifadə edə bilibbar. Müstəqillik illərinin yetirdiyi və bu illər ərzində 13 kitabı nəşrilli olan şairlərdən biri də Şuyazan yaşamında yaşıb-yaradan Nəcməddin Mürvətovdur.

Onun imzası mətbuatdan, ekrandan-efirdən mənə tanış olsa da, şəxsən mənimlə ilk dəfə yazılarla qədər cəbhədən bu prinsipin tələblərinə motivasiya etmolidir.

Müstəqillik illərində yaz

QORUMAQ İSTƏYİ...

Qurban BAYRAMOV,
tənqidçi-ədəbiyyatşünas

Nəcməddin, başqa sözlə, insanın könül, ruh aləmini deyil, yaşam, mənəviyyat, əxlaq, rəftar, gündəlik insani münasibətlər aləminə didaktik-ədəbi ekskurslar edir. O, bir qəzəlində dediyi kimi, ən çox, "Mübariz ol, mehədə ayrıcı boşan nazigarə" ifrazının xarakterinə uyğun estetik prinsiplə çıxış edir. Qəbul olunmuş bir aksiomdur ki, qəzəl eşqi, məhəbbəti, aşiq-məşuq münasibətlərini tərənnüm edən lirik janrdır. Amma bu lirik janrı Nəcməddin məhəbbət lirikasının deyil, siyasi-ictimai məzmunlu lirikanın tapşırına çevirə bilir:

"Əşrəf"in sakit səni gör nə halə, ay dünya,
Vermir imdi, ha çağır, fəryadıma hay, dünya.

...Hər kəsin var, tələmə, heç gözü doymur kaşarın,
Zülm-zillətdə bu gün yox ki, hesab, say, dünya.

...Qorxuram ki, başər övladı çıxa azıma,
Deyə Nəcməddin ələ: vay halına, vay, dünya!

Və yaxud:

Zəlt edib gör ki, necə yeri-göyü haqsızlıq,
Bölhanı bayraq edib, riya, şəri haqsızlıq.

Zülmünü artırmaq dizlüyə divan tutur a,
Yazıq, məğmun eləyir yiri-neri haqsızlıq.

...İnsanı, həm ümidi öldürərək qəlblərdə,
Artırır qüssə, qəmi, həm kədəri haqsızlıq.

Nəcməddin bir sıra müəlliflər kimi ictimai-sosial mühitdə baş verən kataklizmləri, çatışmayan cəhətləri, nöqsanları, ziddiyyətləri, qarışıqlığı, mexanizmiçiliyi siyasi-ictimai mühitin üzərinə yıxmır, əksinə, bunları insan xarakterində axtarır. Onun nəzərində insan yaradılışın əli varlığı olmaqla bərabər, həm də mürəkkəb xisləti, gizli və aşkar, görünən və görünməyən cizgiləri ilə həm asılaşılandır, həm anlaşılmaz, həm qəlizdir, həm də sadədən də sadədir. İnsan varlığının bu dilemması şübhəsiz bitib-tükənməyən mövzulara zəngin çalar qatır və şeirdən fəhm istəyir ki, insan xislətindəki bu çaların rəngarəngliyini çözə bilsin...

Dünyamızda yaşayır xeyli riyakar insan,
Utanmayan, əməyi eyləməyən ar insan.

Hesabsızdır düzəmi qoz-qaşa badyanını,
Tanınan el-obada adla səntəkar insan.

...Nəcməddin, fəndir yazır, hədlin cəmə, sən bu qədər,
Dünyada az ki, deyil, soysuz lüzfkar insan.

Nəcməddinin təsəvvüründə İnsan mənəviyyatca təmiz, lütfkar olarsa cəmiyyət də, siyasi-ideoloji strukturdan asılı olmayaraq təmiz olar prinsipini qəbul edir. O, bu ictimai "tezzəmi" poetik "aksioma", dəndmaz həqiqətə çevirərək oxucusuna təqdim edir, beləliklə onun müraciət etdiyi mövzular ictimai yük daşıyır. Burada insan başlıca amildir. Günah da, günahkar da insan özüdür... Bütün ətraf mühiti dünya edən insandır, insan kuludur, insan toplumundan yaranan cəmiyyət təbiətin təyinedicisidir. Tanrı təbiəti insandan milyon illər əvvəl yaradıb. İnsan - Adəm oğlu gəldi təbiəti dünya elədi, təbiətdən dünya yaratdı... Bütün bu həyati-fəlsəfi təkamül proseduralistik istiqbalda "Dünya hammamızdır", "Gələcəyik qəzabiro dünyanın", "Dünyamızda yaşayan...", "Vay, dünya", "Dünya yalan deyil" qəbildən şeirlərdə müəllif mövqeyindən əksini tapıbdır. "Dünya" obrazı zaman, dövran, ictimai mühit sinonimi kimi mənalandırılır. Məna elə gəlir ki, bu şeirlərin ruhu Xızı dağlarının müqəddəs mehrablarından bəsalanıq qalxan, Beşbarmaq ziyarətgahının zirvəsində canalanan zərif bir duman kimi onun bütün yaradıcılığına hopubdur:

Tanrı qurub əzəldən bir ilahi nizamı,
Yaranmışlar torpaqdan, torpağa dönür hamı.
Başlanğıcdan görünür hər sonrakı, davamı,
Adətdir, verdiyi almaq hayalan - dolan,
Yalançılar bizik-biz, yox, deyil, dünya yalan!

Bu poeziyasında "Dünya" mövzusunda yazılmış şeirləri şairlərindəki motivə fərqli bir yanaşmadır, orijinaldır, "dünya" fəlsəfi dilemmasının həllinə yönəlik yeni bir təzədir. Bu yanaşma, bu qəbildən olan şeirlərinə məxsus çalar qatır, dünya mövzulu şeirlərində çəmiho bir paradoksal mükəddilə gedir onun ruhunda:

Pis peşəlib yaman mizan-tərəzi,
Yalan, böhtan olub söz-söz çərəzi,
Ayırmarıq düz, əyrini, qərəzi,
Qəmimiyik üzə, mənən, ziyanın,
Kaş gələmərək qəzəbinə dünyanın.

Böyük filosof-cənablı Yaşar Qarayev bir yazıçı haqqında yazırdı ki: "O, bədiiliyi maraqlı həyat hadisəsi halında deyil, adi həyat hadisəsini bədiiliyin, istedadın həmişə həm maraqlı, həm də ibrətamiz etmək bacarığı ilə diqqəti cəlb edir..." Təxminən, Nəcməddinin şeirlərində də "həyat hadisəsini ibrətamiz etmək bacarığı" qüvvəsi effektində müşahidə edilir.

Buna görə də, Nəcməddinin şeirlərində müəllif mövqeyi, istəyi, tendensiyası aydındır, bir başadır, üstlü, məqsədlər sibiləni pərdəni arasında gizlədilmir. Onun dramaturqda mövzu traktovkası var. Lap rejissorsayağı, dəqiq desək o, şeirlərinin rejissoru kimi də çıxış edə bilir, bu da onun şeirlərinə bir dramatizm aşılayır. Məna da gəlir ki, onun Cəfər Cabbarlıya, Mikayıl Müşfiqə, Zəlimxan Yaquba və bu qəbildən olan digər ithaf şeirlərindəki sənətə-sənətkara münasibəti, hörməti, məhəbbəti də buradan qaynaqlanır və böyük dramaturqa həsr etdiyi "Cəfərlə söhbət" şeirində yazır:

Siz mülkünün Günəşinən nur saçan,
Borç vuranan hikm tufanda, yağışda.
Yarındığın gözəlliklər qolh açan,
Bəhsə-bəhsdə, nümayişdə, baxışda.

Maddi cəhətdən kamillər, mənəviyyatca kasıblar onun satirasının hədəfidir... Həyatın təzadları onu düşündürür... Duyğusuz, laqeyd, neytral mövqeli, biganə, hissiz, haris, leyləgər, yaltaq, təmənnakar, başgirləyən, şeytani hisslərlə yaşayan adamcığazlar onun nifrətinə, qəzəbinə tuş gəlir... Onun əsərlərində bu adamcığazlar qələmya yaramazlar da, antimədəniyyət etalonlarıdır...

Onun satirik obrazları cəmiyyətdəki mənəvi girdablarda kədərdir, aparıcıdır... Onun mövzular aləmində sosial-mənlik xəti də var ki, o da bu günümüzün inanc pladosunun ifadəsinə xidmətdə təbii axındadır... Onun satirasında qrotesk yoxdur. Amma ifşaedici barışmazlıq və nifrət motivi güclüdür... O, bir müəllim-şair kimi durmadan əxlaq, saf mənəviyyat, halal çörək, irs-namus, loyaqət və həya qoruyucusudur... O tək, təmbə deyil, cəmiyyət adamıdır və peşəsi ilə də, qələmi-şeiriyi ilə də cəmiyyətə xidmətdən zövq alır... Və bu xidmətə görə özünü şəxsiyyət hesab edir və avtoportret səciyyəli "Sənma mənden mənı" şeirində yazır:

Deməmişəm yalan, böhtan,
Şər işlərdən durub uzaq.
Ölməmişəm alım, satım
Azılmayıb nəfsim, maraq.

...Haqsızlığa, naxalığa
Eyləmişəm qiyam, üsyan.
Pasılığa, lovğalığa
Nifrətim var, buna inan!

Adi məişət təhkiyəsi, məişət nitqi, öz regional mühitinin məişət danışıq tərzi... Onun yaradıcılığında cəmiyyətin sosial ukladı, mənəvi-əxlaqi həyatı, ictimai hisslər bərbəzəksiz, məişəti müdaxilə mənzə qəlmədən həssaslıqla təqdim edilir. Onu cəmiyyətin paradoksal halları daima düşündürür...

Nəcməddini demək olar ki, bütün əsərlərində öz mühitində yaşayan insanın xarakteri, psixologiyası, düşüncə tərzi, nitq koloriti təqdim olunur. Və görünür, insanı yaradıcılıq, həm də ona görə qiymətlidir ki, ağır bir elm mentalitetini ədəbiyyata gətirmək missiyasını talı onun imdadına havalə edib. O isə bu missiyanı yalnız istedadla yox, eyni zamanda vicdanla, mənəvi məsuliyyətlə yerinə yetirir. Sözü peşəkarlıqla zədələmir, çəkməsinlərin təbii hisslərinin, duyğularının qarşısını almır, onların ruhuna müdaxilə etmir... Müəllif "mən"inin hakim olduğu yeganə mövqe təhkiyə səmiliği, intonasiya səmimiyyətidir... Elə bu səmimiyyətlə də, pərvəqarlərin, şeir dallalarının, manasız, məzmunsuz əzmaqlara yazanların obrazını satirik fonda belə təqdim edir:

Yazdığın şeir adına, xallıdı, bilirəndir inan,
Onu kim etsə qəbul bil ki, o nadandır inan.

Nə məna, məzmunu var, nə də adı qafiyəsi,
Baş yorən, beyin aparan, qəlb sızan həzyandır inan.

İstəyirsən özünü kaş yekələrdən yekə say,
Sənətdən yox xəbərin, kor kimi ayandır inan.

Lakin o, həqiqi sənət dostlarını məhəbbətdə, hörmətlə yad edir, onlara mənalı şeirlər ithaf edərək, təzadlı hənkarlarının sözlə cizgilənmiş portretlərini yaradır. "Belə idi Zəlimxan", "Yaşa, yarat, Zəlimxan", "Reyhan Kənanə", "Oğlanda", Musa Ələkbərliyə, həsr etdiyi şeirlər, alim dostu, professor Məmməd Əliyevə, Ekbər Mosimova, dostu Tələddin Bağırova həsr etdiyi miniatür-əsərlər bu qəbildəndir. Təsəvvür yaratmaq üçün tanınmış filoloq Məmməd Əliyevə ithaf etdiyi "Təəssüflənmədim" düşüncə-essesindən bir parçaya diqqət kəsilək: "...Tanınmış, çox tanınmış bir alimin yazılarında müraciətimə çox sevindirdi məni. Gözləyirdim, səbirsizliklə gözləyirdim həmin görüş gününü. Hazırlaşırdım dözərdi. Ölçüb-biçirdim nə deyəcəyimi, soruşacağımı, hansı şeiri söyləyəcəyimi. Nəhayət, yetişdi o gün. Gəldi bir neçə nəfər alimlə. Görüşdük. Doğmalar kimi, yaxınlar kimi görüşdük. Təsəvvür etdiyimdən də, yüksək səviyyəli alim olduğunu hiss etdim. Dinləmək istəyirdim onu. Ancaq dinləmək. Özümün deyəcəklərimi, soracaqlarımı unutmuşdum..." Yeri gəlmişkən deyim ki, Nəcməddin müəllimin "Düşüncələr"dən ibarət əsərləri yığcamlığı, lakonikliyi, aydın, anlaşıqlı, hissli-hiyyatlı, təsirli məzmunu və üslubu ilə şeirlərinin əvəzindədir. Bu miniatürlərdə də, xeyli satirik, tənqidi mövzuda, ictimai-sosial mezmunda nümunələrlə qarşılaşırıq...

Dediyimiz kimi, onun poeziyası ən çox sosial problemləri əhatə edir... Nəcməddin ardıcıl olaraq sosial məzmunlu həyat həqiqətlərini bədii sözün ahəngine çevirməyə çalışır. Qeyd etməliyik ki, Nəcməddin sosial mövzulara müraciət etdiyindən onun poetik təhkiyəsində publisistik üslub baləsi özündədir. Publisistika çətin, məsuliyyətli janrdır, gərək həyatın, gerçəkliyin nəbzini tuta biləsən, ətrafında baş verən hadisə və olayları çevik və operativ şəkildə əks etdirməyi bacarasan... Təbii ki, publisistika özü də çoxçalarlıdır. Lakin poeziyada bu üslubdur, janr deyil. Janrın müəyyən keyfiyyətləri poeziyaya təlbiq edilir, ifadə tərzinə çevrilir.

"Dünya poeziyasında modern düşüncənin banilərindən hesab edilən sənətkarlardan biri belə yazırdı: «Mənim şair kimi bütün yaradıcılığım belə bir inamla aydındı ki, sənət, poeziya varlığı, yaxud insanı ifadə etmir, onları tamamlayır. ...Sənət və poeziya varlığın davamıdır. Onlardan istifadə etməklə mən gerçəkliyi çoxaldıb artırmıram, onu tutmağa çalışmıram, yalnız elə bir yeni gerçəklik uydururam ki, içindən çıxdığı gerçəkliyi eyni zamanda həm unudursan, həm də yada salırsan» (Cavanşir Yusifinin tərcüməsindən iqtibas.)

Onun yaradıcılığında əldə edilən müşahidələrimə, şeirlərinin təhlilinə əsaslanaraq inamla deyə bilərəm ki, Nəcməddin Mürvətovun tərcümeyi-halının (və şəxsiyyətinin) həm mahiyyətini, həm də məğzini müəyyən edən mühüm əlamətlərdən biri budur ki, o, bəyə-başa çatıb formalaşdığı regionda qazandığı (və heç zaman zədələnməsinə, təhrifinə, erozyasına imkan verməidiyi) mənəvi zənginliyə, bir də müstəqillik illərində - XXI əsrin əvvəllərində baş vermiş mürəkkəb, qaynar (artıq tarixə çevrilmiş) ictimai-siyasi proseslərdə möhkəmlənmiş əqidə mükəmməlliyinə malik bir ziyalıdır... Bir şair-ziyalı-müəllim kimi o mənalı, ziyalıya yaraşan bir ömür yaşayır, yaradır... "Yaşadım" şeirində Nəcməddin ömürlüyünü belə mənalandırır:

Burulğanlı həyatımda çox zaman,
Ömrü al-qol ata-ata yaşadım.
Az sevindim, oldu tez-tez peşman,
Bağladıraq hətta-hətta yaşadım.

Öz peşəmə halal olub uğurum,
Çəxlarına səfa saldı uğurum,
Əvvəl-axır bir ziyalı uğurum,
Mən ziyalıla qata-qata yaşadım.

...Nəcməddinəm, çox görərsən də zillət,
Sevdim eli, yurdu, xalqı, milləti,
Ruha hardan aybar, kürdan xalvəti,
Yağ, bal, şəkər qata-qata yaşadım.

Qələm dostlarımdan birinin (Tehran Əlişanoğlunun) sözlərdür, yerinə düşdüyündən misal gətirirəm: "İnsan ömür yaşayır, yazısı qalır..." Düşünürəm ki, mənim bu məqaləmin qəhrəmanı da - müəllim-şair-ziyalı Nəcməddin Mürvətov da, həm mənalı bir ziyalı ömrü yaşayır, həm də qələmə aldığı mənalı yazıları da, qallardır...

Son